BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# QƏDİM ROMA DRAMATURGİYASINDA XƏSİS SURƏTİ
## (T.M.Plavtın «Xəzinə» əsəri əsasında)

**K.T.ƏBDÜRƏHMANOVA**
***Bakı Slavyan Universiteti***
***Xosrov1978@mail.ru***

*Bu məqalə xəsis obrazının təhlilinə həsr edilib. Burada Qədim Roma dramaturgiyasının görkəmli nümayəndəsi, yazıçı Mark Tit Plavtın «Xəzinə» əsəri əsasında xəsis obrazını və xəsisliyin törətdiyi fəsadları açıb göstərməyə nail olmuşdur.*

*«Xəzinə» komediyasının baş qəhrəmanı olan Evklionun xəsisliyi onun rahatlığını əlindən alır. Xəsislik onun varlığına o qədər hakim olur ki, Evklion üzünü yuyanda suya qənaət edib, öz göz yaşından istifadə edir, hətta bacadan çıxan tüstüyə belə qənaət etmək səyi göstərir. Məqalədə xəsislik ifrat dərəcədə qəhrəmanın əqlini əlindən alır.*

*Məqalənin üstün cəhətlərindən biri ondan ibarətdir ki, «Xəzinə» əsəri əsasında xəsislik dolğun, hərtərəfli göstərilir. Əsərdə çoxlu sayda sitatlar iddiaçının yürütdüyü mühakimələri sübut edir.*

Dünya ədəbiyyatını vahid bir proses, onun ayrı-ayrı dövrlərini bu prosesin mərhələləri kimi qəbul etsək, onda ədəbiyyatı bəşəriyyətin mənəvi-ruhi tərcümeyi-halı adlandırmaq olar. Məhz bədii ədəbiyyat insanın tarixi inkişaf yolunu, onun təkamülünü daha dolğun əks etdirən təfəkkür formasıdır.

Ədəbi-tarixi proses keçmişdən gələcəyə doğru inkişafda olan canlı və yekdil bir proses olmaqla yanaşı, həm də ayrı-ayrı mərhələlərdən ibarətdir. Ədəbi-tarixi prosesin yekdilliyini şərtləndirən amil insan və onun tarixi təkamülü yoludur. Hər bir ədəbi hadisənin mahiyyətini açmaqdan ötrü ilk növbədə insan probleminə müraciət etmək lazımdır. Ədəbiyyatın mərkəzi məsələlərindən biri və ən başlıcası insan problemidir.

Antik ədəbiyyatda insan ilk dəfə bədii təsvirin obyektinə çevrilmişdir. Onun kədəri, sevinci, ağrı-acıları, etiraz və üsyanı, ağıl və hissi zamanla əlaqəli şəkildə əks etdirilmişdir. Antik ədəbiyyatda gerçəkliyin bədii dərkinin xüsusiyyətləri və inkişafı çoxsaylı janrlar və üslublarla meydana çıxmışdır. Müxtəlif janrlar və üslublar vasitəsilə müasirliyini indi də itirməyən mövzulara toxunaraq bir çox obrazlar yaradılmışdır. Qədim mədəniyyətin və ədəbiyyatın obrazları zaman etibarılə çox qədimlərə aid olsa da, bu obrazlar, ümumiyyətlə, qədim ədəbiyyat əsərləri indi də dərin və canlı maraq doğurur.

Roma ədəbiyyatı qədim Yunan ədəbiyyatının ənənələrini davam etdirməklə bərabər yeni estetik dəyərlər yaratmış, dünya mədəniyyəti xəzinəsinə öz töhfəsini vermişdir.

Zamanın müxtəlif dövrlərində klassiklər tərəfindən yaradılmış xəsis surəti, ümumiyyətlə, xəsislik mövzusu indi də dərin maraq doğurur. Xəsislik problemi uzun müddət dünya söz sənətinin ən görkəmli xadimlərinin diqqətini cəlb etmişdir. Müx-

təlif tarixi dövrlərdə istər dünya ədəbiyyatının, istərsə də Azərbaycan ədəbiyyatının klassikləri xəsislik mövzusuna müraciət etmiş, xəsis insanın canlı nümunələrini yaratmışlar.

Antik mənbələr xəbər verir ki, sadə adamlar gecələr varlı adamların evlərinin yanında yığışır, onların qəddarlığını, xəsisliyini ifşa edən mahnılar oxuyurdular. Sonralar dövlət orqanları sadə adamların varlılar əleyhinə bu cür çıxışlarından öz məqsədlərinə nail olmaq üçün istifadə etməyə başladılar və sadə adamlara öz mahnılarını gündüz də ifa etməyə icazə verdilər.

Təsadüfi deyildir ki, dünya ədəbiyyatında xəsislik mövzusu da öz əksini komediyalarda tapmışdır.

Komediyanın əsasını acı gülüş təşkil edir ki, bu tənqid üsullarından ən qüvvətlisidir. Komediya ictimai həyatın, həyat və insanların mənfi cəhətlərini, həyatda təsadüf edilən eybəcərlikləri, uyğunsuzluqları, mənasız və çürük hərəkətləri, alçaq və bayağı hadisələri təsvir və ifşa edir.

Dünya ədəbiyyatında ilk xəsislik mövzusunda yazılan əsər Romanın görkəmli dramaturqu Plavtın «Xəzinə» komediyasıdır. Daha sonralar xəsislik problemi bir çox dramaturqları cəlb etmişdir. Şekspir, Molyer, Balzak, Qoqol, Axundov və digər görkəmli yazıçılar yadda qalan xəsis obrazları yaratmışlar. Bu obrazlar bir-biri ilə nə qədər birləşmiş olsalar da, yenə öz fərdi xüsusiyyətləri cəhətdən fərqlənirlər, çünki bu obrazların hər biri ayrı-ayrı klassiklər tərəfindən, ayrı-ayrı ictimai şəraitdə yaradılmış və müəyyən tarixi dövrün məhsuludur.

Tit Mark Plavt Romanın ilk böyük dramaturqudur. Plavt yüzlərlə komediyanın müəllifi olmuşdur. Lakin onlardan cəmi 20-si tam halda, biri isə fraqmentlər şəklində bizə gəlib çatmışdır. Ədib əslində Menandr, Flemon və digər yunan komedioqraflarının əsərlərini Roma teatrı üçün işləyib hazırlamışdır. Lakin Plavtı heç də tərcüməçi hesab etmək olmaz. Məsələ burasındadır ki, Menandr və digər yunan dramaturqları bir qayda olaraq yuxarı təbəqəyə mənsub idilər. Plavt isə pleybey sinfini təmsil edirdi və demokratik prinsipləri əks etdirirdi. Məhz buna görə də, Plavtın tamaşaçılarının əsas kütləsi sadə adamlardan ibarət idi və dramaturq sadə adamların çatışmayan cəhətləri haqqında son dərəcə ehtiyatla danışırdı. Sadə xalq kütlələrinə münasibət Plavtın əsərlərinin quruluşuna və əsaslandığı estetik prinsiplərə də öz təsirini göstərirdi. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Plavt yunan dramaturgiyası üçün xarakterik olan ciddilikdən imtina etmiş, komediyalarının quruluşunu son dərəcə sadələşdirmişdir, bəzən isə bəsitliyə yol vermişdir. Dramaturqun əsərlərində xalq tamaşaçıları üçün səciyyəvi olan təlxəkçiliyə, məzhəkəçiliyə rast gəlinir.

Roma cəmiyyətinin həyatından mövzu alıb komediya yazmağın çətin və qorxulu olduğunu görən Plavt, mövcud ənənəyə bağlı qalmış, öz mövzularını Yunan ədəbiyyatından götürmüşdür. Ədib insanları və insan əlaqələrini real surətdə təsbit etmişdir.

Plavt yaradıcılığında özünə xas bir sənətkarlıq üsulu ilə gedərək, yunan həyatını əksərən bir vasitə kimi qəbul etmiş, heç bir zaman vətəninin real həyat həqiqətlərini unutmamışdır. Ədibin komediyaları öz süjetləri ilə rəngarəng olmasalar da, bunlarda dövrün ən mühüm məsələlərinə toxunulmuşdur.

Plavt sələmçiliyi xalq üçün bir bəla sayırdı. Roma tacirləri – müharibələr dövründə külli miqdarda pul əldə edən adamlar pula sitayişlə varlanma ehtirasına düşmüşdülər. Romada sələmçiliyin əsası, antik mənada kapital yığımı zamanı yaranmışdır. Ədib sələmçiliyin və xəsisliyin əxlaqi nəticələrini göstərib tənqid edirdi.

Məqalədə dünya ədəbiyyatının görkəmli nümayəndəsi T.M.Plavtın «Xəzinə» əsəri təhlil olunur.

«Xəzinə» komediyası Plavtın ən məşhur, təsir dairəsi daha geniş olan əsərlərindən biridir. Rəvayətə görə VI və III əsrlərdə xəsislik mövzusunda yazılmış bir çox komediyalar olmuşdur. Onlardan heç biri bizə gəlib çatmadığı üçün Plavtın «Xəzinə» komediyası həmin mövzuda ilk əsər kimi diqqət mərkəzində dayanmışdır.

Ədəbiyyata xəsis surətinin tarixini də komediyanın mərkəzi surəti olan Evklion ilə başlamaq lazım gəlir.

Dramaturq bu əsərlə xarakter komediyasını yaratmış, Evklion simasında ilk klassik xəsis surətinin səciyyəvi boyalarını təcəssüm etdirmişdir. Yoxsul və namuslu Evklion evin fərşində basdırılmış içi qızıl ilə dolu küp tapır. Tapılmış küp Evklionun ruhi müvazinətini pozur. O, küpü gizlətdikcə gizlətmək istəyir, hamıdan şübhələnir, hamıya quldur, oğru nəzəri ilə baxır; daxmasını bağlı saxlayır; evi gözdən qoymur. Qoca dayə Stafila Evklionun hərəkətlərinə təəccüb edir: axı, evdə oğrunun, quldurun diqqətini cəlb edəcək elə bir şey yoxdur. Evklionun xəsisliyini daha bariz göstərmək üçün Plavt əsərə məlum ailə əhvalatı daxil edir. Qonşu varlı Meqadorun evlənmək vaxtı keçdiyindən cehizsiz bir qız almaq qərarına gəlir. Belə qız da yoxsul Evklionun qızı Fedra ola bilər. O, zorla Evklionu razı salır və toy hazırlığı başlanır. Aşpazlar, nökərlər Evklionu çox darıxdırırlar. Evə girib-çıxdıqca Evklion onları gözdən qoymur. Eyni zamanda məlum olur ki, Fedranı Meqadorun bacısı oğlu Likonid sevir. Hətta Fedra ondan hamilədir. Bunu bilən Meqador Fedranı Likonidə istəyir. Vəziyyət mürəkkəbləşir. Evklion küpü daha etibarlı yerdə gizlətmək istəyərkən Likonidin nökəri qul Strobil bunu görür. Küpü çıxarıb aparır. Küpü yoxlamağa gələn Evklion onu yerində tapmayınca, hay-küy qoparıb fəryad edir. Likonid gəlir və o, belə düşünür ki, qızının hamilə olduğunu bilən ata qəzəblənmişdir. Gənc oğlan hər şeyi etiraf etmək qərarına gəlir. Evklion qızıldan danışır; Likonid isə qız haqqında təqsirini boynuna alır. Onlar bir müddət bir-birini başa düşmürlər. Nəhayət, məsələ məlum olur. Hiyləgər Strobil özünü azad etdirmək üçün küpədən istifadə etmək istəyir. Ağasının razılığını ala bilməyən nökər birdən-birə dediklərini inkar edir.

Əsərin sonluğu itmişdir. Lakin II əsrin Roma dramaturqlarından birinin rəvayətinə görə, məlum olur ki, axırda küp Evkliona qaytarılır. Qızını Likonidə verməyə razı olan ata, qızılı da cehiz kimi onlara təqdim edir; özü də çox razı qalır, hər gün qızılı basdırmaq üçün beş-on çuxur qazmayacaq, basdırdığı küpün keşiyini çəkməyəcək, rahat gəzib rahat yatacaqdır. Ailənin canı qızılın gətirdiyi bəladan qurtaracaqdır.

Komediyada hər şeydən çox nəzərə çarpan pulun cəmiyyətdə hərəkətverici bir qüvvə olmasıdır. Bir də Evklion özünü saxlaya bilməyərək deyir ki, «qızılda nə qədər böyük qüvvə vardır!» (1, 339). Meqador onun qızını istədiyi vaxt Evklion təəccüb edir. «Axı, necə ola bilər ki, pulu, evi dolu, qab-qacağı qızıldan, gümüşdən olan belə bir varlı onun qızını almaq istəyir. Axı varlıların bir əlində çörək, o biri əlində daş olur. Varlı yoxsulun dostu ola bilməz. Heç öküz ilə eşşəyi bir boyunduruğa bağlarlarmı? Ağır yükdən eşşək yıxılıb qalar, öküz isə geri baxmadan vurub keçər, heç elə bil eşşək yox imiş...» (2, 20). Evklionun bu mühakimələri, bir tərəfdən, sinfi ziddiyyətin tamamilə aşkara çıxdığını, ikinci tərəfdən, quldarlıq cəmiyyətində pulun oynadığı mühüm rolunu göstərir.

Əsərdə xəsisliyin insan üzərində mənfi mənəvi təsiri daha aydın nəzərə çarpır. Xəsislik qəhrəmanın varlığına o qədər hakim olur ki, Evklion üzünü yuyanda suya

qənaət edib, öz göz yaşlarından istifadə edir. O, bacadan çıxan tüstüyə, öz nəfəsinə belə qənaət etmək səyi göstərir. Hətta tutduğu dırnaqlarını yığıb evə gətirir. Xəsis Evklionun nəinki ailə üzvləri, hətta özü belə daimi əziyyət və rahatsızlıq içində boğulur. O daim qorxur ki, xəzinənin yerini biləcəklər və çıxarıb aparacaqlar. O, danışdığı adamları sorğu-suala tutur: bəlkə onlar xəzinənin basdırıldığı yeri bilirlər. Gecə-gündüz qızılını düşündüyü üçün qızının qeydinə qalmır, evində quru çörək də tapılmır. Evklionun xoruzdan şübhələnməsi onu daha da gülünc vəziyyətə salır.

«O da məni bədbəxt etmək istəyir. O da qızılı basdırdığım yeri eşələyib aşkara çıxarmaq istəyir. Yəqin ki, aşpazlar onu dilə tutub öz tərəfinə çəkiblər ki, xəzinənin yerini onlara göstərsin» (2, 28).

Doğrudur, Evklionda xəsislik keçici xüsusiyyət daşıyır. O təsadüfən qızıl tapmışdır. Yəqin ki, küpü yerə basdıran babası olmuşdur. Atasının bundan xəbəri olmadığı halda, Evklion onu tapmışdır. Evklion sələmlə pul vermir. Onda varlanmaq meyli olmadığı kimi, xəsislik mütləq bir ehtirasa da çevrilmir. Buna görədir ki, axırda qızılı öz qızına cehiz verməklə özünü pulun bəlasından qurtarır.

Beləliklə, xəzinənin yükündən xilas olandan sonra Evklionun daxili müvazinatı bərpa olunur. Bununla da xəsislik xarakterin daimi xüsusiyyəti kimi yox, keçici bir psixi xüsusiyyət kimi nəzərdən keçirilir.

Plavtın komediyası müasir həyatın əsas səciyyəvi cəhətlərini əks etdirmiş, onun komik cəhətlərini ön planda göstərmişdir. Onun orijinal üslubu komediya tarixində xüsusi məktəb təşkil edir. Maraqlı orasıdır ki, Romanın və Avropanın bütün zadəgan yazıçıları Plavtı kobud və bayağı bir yazıçı adlandırmışlar. Onun canlı, obrazlı üslubuna «küçə üslubu» adı vermişlər. Lakin dünya ədəbiyyatının Şekspir, Molyer kimi böyük dramaturqları, əksinə, Plavtı başqa Roma dramaturqlarından üstün tutaraq, onu ustad sənətkar adlandırmışlar. Tarix göstərir ki, böyük dramaturqlar öz qiymətlərində yanılmamışlar. Plavt mahir bir sənətkar kimi öz təravətini və şöhrətini indi də mühafizə etməkdədir.

Əsərin Avropa ədəbiyyatında əks-sədası çox qüvvətli olmuşdur. Hətta fransız dramaturqu Molyer «Xəsis» komediyasını yazarkən bu əsərdən bir neçə səhnəni eynilə əsərinə daxil etmişdir.

### ƏDƏBİYYAT


1. Sultanlı Ə. Antik ədəbiyyat tarixi. Bakı: Nurlan, 2008, 520 s.
2. Antik ədəbiyyat antologiyası. Bakı: Avrasiya-press, 2006, 264 s.
3. Dünya ədəbiyyatı kitabxanası. II və III c.-lər. Bakı: 1994.
4. Roma ədəbiyyatı müntəxəbatı. Bakı: Azərnəşr, 1959, 467 s.


## ОБРАЗ СКУПОГО В ДРАМАТУРГИИ ДРЕВНЕГО РИМА
**(на материале произведения «Клад» Т.М.Плавта)**


**К.Т.АБДУРАХМАНОВА**



### РЕЗЮМЕ

Данная статья посвящена творчеству Т.М.Плавта, в частности, его комедии «Клад». На основе главного персонажа Эвклиона в статье раскрывается скупость, показывается ее отрицательное воздействие на людей, на их жизнь и быт. Скупость главного героя настолько захватило его, что Эвклион теряет свой покой. Ни днем, ни ночью его клад не дает ему покоя. Лишь избавившись от него, он, наконец, освобождается от тревог и находит успокоение.

## THE IMAGE OF STİNGY İN THE ANCIENT ROMAN DRAMA
**(on the basis of T.M.Plaut's "Treasure")**

**K.T.ABDURAHMANOVA**

**SUMMARY**

This article is devoted to T.M.Plaut's creativity, particularly, his comedy "Treasure". The greedyness, as a moral defect is demonstreated on the sample of the leading personage Evklion. The negative influence of greedyness to human nature, life style and character is demonstrated and sharply criticized by the author.